# Parisdə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi təntənə ilə qeyd edilib





Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə Parisdə müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi təntənəli şəkildə qeyd edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Fransada akkreditə olmuş diplomatik korpusun nümayəndələri, fransız diplomatlar, tədqiqatçılar, yerli ictimaiyyətin və Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Ölkəmizin Fransadakı səfiri Leyla Abdullayeva çıxışında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin dövlətin ən çətin anlarında onu tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxardığını vurğulayıb. Bildirilib ki, Heydər Əliyevin müdrik siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutub.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev ömrünün son 10 ilini Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə həsr edib, onu düşdüyü çətinlikdən çıxararaq dirçəldib.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevi Şarl de Qoll ilə müqayisə edən diplomatlar xalqları üçün çətin anlarda hakimiyyətə gələn hər iki dövlət rəhbərinin ölkələrinin inkişafına verdiyi töhfələrdən danışıblar. Qeyd edilib ki, Ulu Öndərin strateji kursunun uğurla davam etdirilməsi ölkəni regional və beynəlxalq səviyyədə nüfuzlu aktora, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevirib.

Fransanın Azərbaycanda ilk səfiri olmuş Jan Perrən Ümummilli Liderlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşərək, Heydər Əliyev kimi böyük şəxsiyyəti görmək arzusu ilə Naxçıvana getməsindən, Ulu Öndərlə ilk görüşündən söz açıb. Azərbaycanın ən çətin vaxtlarında Naxçıvana gedən ilk səfir olduğunu diqqətə çatdıran diplomat vurğulayıb ki, o vaxt Azərbaycanı çətin vəziyyətdən, parçalanmaq təhlükəsindən yalnız böyük siyasi xadim Heydər Əliyev çıxara bilərdi. Diplomat qeyd edib ki, məhz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycan inkişaf etməyə, bütün sahələrdə dirçəlməyə başladı.

Tanınmış tarixçi və geosiyasət üzrə ekspert Aleksandr Adler Versal sarayında Ulu Öndərlə ilk görüşündən söz açaraq deyib: "Tanrı bu şəxsiyyəti öz xalqına son dərəcə mürəkkəb bir tarixi məqamda xilaskar olaraq göndərmişdi. Ötən əsrin 80-ci illərinin ikinci yarısında Sovet İttifaqı rəhbərliyində Heydər Əliyevə qarşı yaradılan maneələr onu əsla ruhdan salmadı".

Natiqlər Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdarkən ölkə parçalanmaq təhlükəsində olduğunu, onun müdrikliyi, bacarığı, dərin zəkası sayəsində Azərbaycanın qısa müddətdə yenidən dirçəltdiyini vurğulayıblar. Eyni zamanda Heydər Əliyev strategiyası sayəsində Azərbaycanın bütün regionda sabitliyin qarantına çevrildiyi diqqətə çatdırılıb.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən sərgiyə baxış olub.

Tədbir etnocaz konsert proqramı ilə davam edib. Konsertdə Etibar Əsədli (piano), Şəhriyar İmanov (tar), İmamyar Həsənov (kamança), Teddi Sorres (kontrabas), Yoan Şmidt (zərb alətləri) müşayiəti ilə Azərbaycan xalq mahnıları "Sarı gəlin" və "Küçələrə su səpmişəm"i, "Fəridəm", "Qara qaşın vəsməsi", eləcə də Səid Rüstəmovun "Hardasan", Ş. İmanovun "Ağlayan şəlalə", E. Əsədlinin müəllifi olduğu kompozisiyalar ifa edilib.

Azərbaycan.- 2023.- 9 may.- S.19.